# Təşkilati Dayanıqlılıq

## Mövzu Əsaslı Tələb
## (Topical Requirement)

*Tərəfindən tərcümə olunmuşdur*

The Institute of Internal Auditors

The Institute of Internal Auditors
Azerbaijan

# Təşkilati Dayanıqlılıq üzrə Mövzu Əsaslı Tələb

Daxili Auditorlar İnstitutunun (“DAİ”) Peşəkar Təcrübələr üzrə Beynəlxalq Çərçivəsi® (International Professional Practices Framework®) Qlobal Daxili Audit Standartları™ (Global Internal Audit Standards™), Mövzu Əsaslı Tələblər və İstifadə üzrə Qlobal Təlimatdan ibarətdir. Mövzu Əsaslı Tələblər məcburi xarakter daşıyır və nəzərdə tutulan tətbiq zamanı əsas və etibarlı mənbə sayılan Standartlarla birlikdə tətbiq edilməlidir.

Mövzu Əsaslı Tələblər müəyyən edilmiş risk sahələrinin auditi üçün minimum baza xəttini müəyyən etməklə daxili auditorlar üçün aydın şəkildə gözləntilər formalaşdırır. Təşkilatın risk profili daxili auditorlardan mövzunun əlavə aspektlərini, o cümlədən yerli tənzimləməyici tələbləri və qanunvericiliyi nəzərə almalarını tələb edə bilər.

Mövzu Əsaslı Tələblərə uyğunluq daxili audit xidmətlərinin icra edilməsində ardıcıllığı artıracaq və daxili audit xidmətlərinin və nəticələrinin keyfiyyətini və etibarlılığını yaxşılaşdıracaq. Nəticədə, Mövzu Əsaslı Tələblər daxili audit peşəsinin nüfuzunu yüksəldir.

Daxili auditorlar Qlobal Daxili Audit Standartlarına uyğun olaraq Mövzu Əsaslı Tələbləri tətbiq etməlidirlər. Mövzu Əsaslı Tələblərə uyğunluq əminlik təminatı xidmətləri üçün məcburi xarakter daşıyır və məsləhət xidmətləri üçün tövsiyə olunur.

Aşağıdakılardan hər hansı biri müvafiq olduqda Mövzu Əsaslı Tələb tətbiq olunur:

- Daxili audit planında audit tapşırığının əhatə dairəsinə daxil olduqda.
- Audit tapşırığı yerinə yetirilərkən müəyyən edildikdə.
- İlkin daxili audit planında olmayan, lakin sonradan tələb olunan audit tapşırığının əhatə dairəsinə daxil olduqda.

Hər bir fərdi tələb, hər bir tapşırığa aid olmaya bilər və bəzi tələblər digər yanaşmalar vasitəsilə də yerinə yetirilə bilər. Əgər tələb digər tənzimləyici qurumların tələbləri və ya müqavilə öhdəlikləri ilə istisna və ya əvəz edilirsə, yaxud Qlobal Daxili Audit Standartlarına uyğun prosedurların tətbiqi vasitəsilə həll olunursa, bunun əsaslandırılması sənədləşdirilməli və saxlanılmalıdır. Standartlara uyğunluq keyfiyyət qiymətləndirmələri zamanı təhlil olunmalıdır.

Daha ətraflı məlumat üçün Təşkilati Dayanıqlılıq üzrə Mövzu Əsaslı Tələbin İstifadəçi Təlimatına müraciət edin.


©2026 Daxili Auditorlar İnstitutu (“IIA”). Bütün hüquqlar qorunur. Yalnız fərdi şəxsi istifadə üçün.

## Təşkilati Dayanıqlılıq

Təşkilati dayanıqlılıq Beynəlxalq Standartlaşdırma Təşkilatı (BST/ISO) tərəfindən “dəyişən mühitdə bir təşkilatın dəyişmək və uyğunlaşmaq qabiliyyəti” kimi müəyyən edilir (ISO 22316:2017). Bu tərif aydın bir format müəyyən etsə də, praktikada təşkilatlar dəyişiklikləri və fəaliyyətin posulmasını qabaqcadan görməkdə, onlara cavab verməkdə, uyğunlaşmaqda və onların təsirindən bərpa olmaqda bir-birindən çox fərqlənirlər. Təşkilati dayanıqlılıq strateji, əməliyyat, texnologiya, insan, sosial və maliyyə ölçülərini əhatə etdiyindən, bəzi təşkilatlar dəyişiklikləri effektiv şəkildə mənimsəyə bilir, digərləri isə bununla mübarizə aparır və ya qeyri-müəyyənlik şəraitində fərqli yanaşmalar nümayiş etdirə bilirlər.

Təşkilati dayanıqlılıq təşkilatın əsas məhsul və xidmətlərini təqdim etmə, maraqlı tərəflərin etimadını qoruma və ya strateji məqsədlərini yerinə yetirmə qabiliyyətinə ciddi şəkildə mane ola və ya zədələyə biləcək riskləri əhatə edən kompleks anlayışdır. Bu risklər qəfil baş verən hadisələrdən (məsələn, təbii fəlakətlər, kiberhücumlar və geosiyasi münaqişə), uzunmüddətli ətraf mühit təzyiqlərindən (məsələn, resurs çatışmazlığı və ictimai səhiyyə böhranları) və ya kənar amillərdə dəyişikliklərdən (məsələn, texnoloji irəliləyiş, tənzimləyici dəyişikliklər və nüfuzun zəifləməsi) yarana bilər.

Bu risklər həmçinin zamanla tədricən dəyişən və ya yavaş-yavaş artan təzyiqlər şəklində ola bilər ki, nəticədə təşkilatın sabitliyinə və uyğunlaşma qabiliyyətinə xələl gətirilmiş olar. Belə artan risklər mütəmadi olaraq nəzərdən qaçmış ola bilər. Dayanıqlı təşkilatlar uğurlu olmaq üçün həm qəfil baş verən, həm də uzun müddət hiss edilməyən riskləri qabaqcadan görüb onlara uyğunlaşırlar.

Dayanıqlılığa təhdidi artıran daxili risk amillərinə son dərəcə mürəkkəb əməliyyatlar, qlobal təchizat zəncirləri, mərkəzləşdirilmiş infrastruktur və ya məlumat sistemləri, işçi qüvvəsinin məhdudluğu, dəyişkən bazar şəraiti və kritik üçüncü tərəflərdən və ya coğrafi məkanlardan güclü asılılıq daxildir. Yüksək etibarlılıq tələb olunan sahələrdə fəaliyyət göstərən və ya ciddi tənzimləyici nəzarət altında işləyən təşkilatlar ictimai təsir və uyğunluq (komplayens) öhdəlikləri səbəbindən mahiyyət etibarilə daha yüksək risklərlə üzləşə bilərlər.

Təşkilati dayanıqlılıq fəaliyyətin pozulmasından əvvəl, hadisələrin gedişatı zamanı və sonra risklərin idarə edilməsinə yönəlməlidir. Daxili auditorlar adətən biznesin davamlılığı və fövqəladə hallardan bərpa ilə bağlı informasiya texnologiyaları (İT) proseslərini və nəzarət mexanizmlərini qiymətləndirirlər. Biznesin davamlılığı planı fəlakət baş verdikdə təşkilatın həyati funksiyalarını qorumaq və normal əməliyyat fəaliyyətinə qayıtmaq üçün atdığı addımları ətraflı şəkildə təsvir edir. Fəlakətin təsirlərindən bərpa planı təşkilatların fəaliyyətin pozulmasına səbəb olan hadisədən sonra İT sistemlərini, kritik məlumatlarını və əməliyyatlarını bərpa edərək adi iş fəaliyyətinə qayıtma üsulunu təsvir edir.

Təşkilati dayanıqlılıq, hər iki planı da əhatə edərək, strateji planlaşdırma, müəssisə risklərinin idarə edilməsi, effektiv rəhbərlik və mədəniyyət, eləcə də təşkilat üzrə ətraflı nəzarət mexanizmlərinin təsis olunmasını tələb edir. Təşkilati dayanıqlılıq üçün güclü nəzarət mexanizmlərinə malik olmaq təşkilatlara dəyişiklikləri davamlı olaraq qabaqcadan görməyə, onlara hazırlaşmağa, müvafiq cavablar verməyə və uyğunlaşmağa imkan yaratmaqla yanaşı, həm də bu təşkilatların mövcudluğunu qoruyub inkişaf etməsinə şərait yaradır.


©2026 Daxili Auditorlar İnstitutu (“IIA”). Bütün hüquqlar qorunur. Yalnız fərdi şəxsi istifadə üçün.

# Təşkilati dayanıqlılığın idarəetmə, risk idarəçiliyi və nəzarət mexanizmlərinin qiymətləndirilməsi və yoxlanılması

Bu Mövzu Əsaslı Tələb təşkilati dayanıqlılığın idarəetmə, risk idarəçiliyi və nəzarət mexanizmlərinin dizaynını və tətbiqini qiymətləndirmək üçün ardıcıl, hərtərəfli yanaşma təmin edir. Tələblər təşkilati dayanıqlılığın dəyərləndirilməsi üçün minimum baza xəttini təşkil edir.

## İdarəetmə

### *Tələblər*

Daxili auditorlar təşkilati dayanıqlılığın idarə olunmasının aşağıdakı aspektlərini dəyərləndirməlidirlər:

A. Dayanıqlılığı nəzərə alan rəsmi təşkilati strategiya rəhbərlik tərəfindən hazırlanır, direktorlar şurası tərəfindən qəbul edilir və ona nəzarət olunur, həmçinin dəyişiklikləri idarə etmək və əməliyyatları davam etdirmək üçün tələb olunan əməliyyat, texnologiya və maliyyə elementlərini əhatə edir. Dayanıqlılıq məqsədləri təşkilatın ümumi risk idarəetmə yanaşması ilə uyğunlaşdırılmalıdır.

B. Dayanıqlılıq məqsədlərinin yerinə yetirilməsi ilə bağlı yeniləmələr mütəmadi olaraq təhlil edilmək üçün direktorlar şurasına təqdim olunur. Bu, dayanıqlılığın strateji nəzarət, uzunmüddətli planlaşdırma prosesləri, varislik planlaşdırılması və təşkilatın mədəniyyətinə, o cümlədən kritik biznes fəaliyyətlərini dəstəkləmək üçün tələb olunan resurs və büdcə fəaliyyətlərinə daxil edilməsini təmin edir.

C. Kritik əməliyyat, texnologiya və maliyyə prosesləri üçün siyasət və prosedurlar müəyyən edilir və nəzarət mühitini gücləndirmək məqsədilə mütəmadi olaraq nəzərdən keçirilir, sınaq yoxlamaları aparılır və zərurət olduqda yenilənir.

D. Hadisə idarəçiliyi strukturu yaradılır və təşkilati dayanıqlılıq məqsədlərinə nəzarət etmək və onları dəstəkləmək üçün istifadə olunur. Bu, qərar qəbuletmə iyerarxiyalarını, kommunikasiya və eskalasiya protokollarını, eləcə də rəhbərlik və əməliyyat rolları və məsuliyyətlərini əhatə edir.

E. Dayanıqlılığın uğurlu sayılması üçün tələb olunan bilik və bacarıqları dövri olaraq təsdiqləmək və dayanıqlılıq proseslərində kritik rolları icra edən şəxslərin səriştələrini yenidən qiymətləndirmək üçün proses müəyyən edilməlidir.

F. Təşkilati dayanıqlılıq məqsədlərinə çatmaq üçün məlumat və hesabat strukturlarının yaradılmasında bütün müvafiq daxili və kənar maraqlı tərəflərin müəyyən edilməsi və cəlb edilməsini, prioritetlərin müəyyən olunmasını təmin edən proses müəyyən edilməlidir. Maraqlı tərəflərə yüksək rəhbərlik, əməliyyatlar, risk idarəçiliyi, İT, təchizat zənciri/satınalma, infrastruktur, insan resursları, maliyyə, hüquq, əminlik təminatçıları (daxili audit də daxil olmaqla), uyğunluq (komplayens), ictimaiyyətlə əlaqələr, kritik təchizatçılar, müştərilər, tənzimləyicilər və digərləri daxil ola bilər.


©2026 Daxili Auditorlar İnstitutu (“IIA”). Bütün hüquqlar qorunur. Yalnız fərdi şəxsi istifadə üçün.

## Risklərin İdarə Edilməsi

### *Tələblər*

Daxili auditorlar təşkilati dayanıqlılığın risklərin idarə edilməsinin aşağıdakı aspektlərini dəyərləndirməlidirlər:

A. Təşkilati dayanıqlılıqla bağlı risklər təşkilat üzrə mütəmadi olaraq müəyyən edilməli, qiymətləndirilməli və idarə olunmalıdır. Dayanıqlılıq riskləri təşkilatın strateji məqsədlərinə uyğunlaşdırılmalıdır. Dayanıqlılıq risklərinin idarə edilməsi prosesi əsas proseslərin qiymətləndirilməsini əhatə edir.

B. Təşkilati dayanıqlılıq riskinin idarə edilməsi üzrə hesabatlılıq və məsuliyyət aydın şəkildə müəyyən edilməlidir. Təşkilati dayanıqlılıq risklərinin idarə edilməsini, o cümlədən riskin azaldılması üçün zəruri resursları və təşkilati dayanıqlılığa yönələn yeni təhdidlərin müəyyən edilməsini müntəzəm olaraq izləmək və hesabat vermək üçün məsul şəxs və ya komanda təyin edilir.

C. Təşkilatın mövcud risklərin idarə edilməsi qaydaları və risk dözümlülüyü və ya müvafiq qanun və tənzimləyici tələblər əsasında qəbuledilməz hesab olunan səviyyəyə çatmış təşkilati dayanıqlılıq riski (yeni yaranan və ya əvvəllər müəyyən edilmiş) səviyyələrini izləmək və onları tez bir zamanda müvafiq qurumlara çatdırmaq üçün proses müəyyən edilməlidir. Təşkilati dayanıqlılıq riskinin təsirləri nəzərdən keçirilməlidir.

D. Rəhbərlik böhran, fəaliyyətin pozulması və fövqəladə hallar baş verdikdə onlara cavab vermək və onların təsirlərindən bərpa olunmaq üçün proses tətbiq etməli və mütəmadi olaraq sınaq yoxlamalarından keçirməlidir. Hadisəyə reaksiya və bərpa prosesi aşkarlanma, prioritetləşdirmə, məhdudlaşdırma, bərpa və hadisədən sonrakı təhlili əhatə etməlidir. Hadisəyə reaksiya yanaşması ssenari təhlillərini və fəaliyyətin pozulmasına səbəb olan müxtəlif hadisələrə qarşı dövri stress testlərin keçirilməsini əhatə edir.

## Nəzarət Mexanizmləri üzrə Proseslər

### *Tələblər*

Daxili auditorlar təşkilati dayanıqlılığa aid nəzarət proseslərinin aşağıdakı aspektlərini dəyərləndirməlidirlər:

A. Vacib əməliyyatların davam etdirilməsi üçün tələb olunan minimal mal-material səviyyələrini təyin etmək və kritik üçüncü tərəf təminatçıları (təchizatçılar və satıcılar) müəyyən etmək üçün proses mövcud olmalıdır. Bu proses həmçinin alternativ təchizatçıların cari siyahısının aparılmasını da əhatə edir.

B. Əməliyyatlar üçün kritik məlumatlar müəyyən edilməli və təsnifləşdirilməlidir. Məlumatların təsnifatlaşdırılması onların harada saxlanıldığını, kimlərin ona çıxış tələb etdiyini, çıxışın necə təmin olunduğunu və fövqəladə hallarda ehtiyat nüsxəsinin olub-olmadığını və bərpa edilə bilib-bilməyəcəyini müəyyən etməyi ehtiva edir.

C. Məlumat təhlükəsizliyi risklərini (o cümlədən kibertəhlükə risklərini) azaltmaq və böhran, fəaliyyətin pozulması və fövqəladə hallar zamanı həssas məlumatların qorunmasını təmin etmək üçün kritik İT nəzarətləri və davamlı monitorinq tətbiq edilməlidir. Nəzarət tədbirləri və davamlı monitorinq real vaxt rejimində təhdid kəşfiyyatını və çıxışın yalnız səlahiyyətli istifadəçilərlə məhdudlaşdırılmasını əhatə edir.


©2026 Daxili Auditorlar İnstitutu ("IIA"). Bütün hüquqlar qorunur. Yalnız fərdi şəxsi istifadə üçün.

D. Kritik İT aktivlərinin siyahısı tərtib olunmalıdır. Aktivlərə böhranlar, fəaliyyətin pozulması və fövqəladə hallar zamanı əməliyyatları dəstəkləmək üçün tələb olunan aparat, proqram təminatı və xidmətlər daxildir.

E. Biznesin davamlılığı və fəlakətdən bərpa planları hazırlanmalı və təyin olunmuş heyət və bərpa komandaları üçün müəyyən edilmiş rolları əhatə etməlidir. Planlar mütəmadi olaraq sınaq yoxlamalarından keçirilməli (məsələn, "masaüstü məşq" şəklində) və sınaq yoxlamalarının nəticələri, o cümlədən təkmilləşdirmə imkanları direktorlar şurasına və yüksək rəhbərliyə təqdim olunmalıdır.

F. Böhranlar, fəaliyyətin pozulması və fövqəladə hallar zamanı iş mühitini dəyişdirmək üçün proses müəyyən edilməlidir.

G. Təşkilati dayanıqlılığa təsir göstərə biləcək yeni təhdidləri və zəiflikləri davamlı şəkildə izləmək və hesabat vermək üçün proses yaradılmalıdır. Bu proses təşkilati dayanıqlılığın əməliyyatlarını, o cümlədən məlumat vermə sistemləri və ya risk kəşfiyyatı və məlumat toplama sistemləri də daxil olmaqla, təkmilləşdirmək üçün imkanları müəyyən etmək, prioritetləşdirmək və icra etmək məqsədilə istifadə olunur.

H. Təşkilati dayanıqlılıqla bağlı heyətin təhsili və təlimi üçün proses yaradılmalıdır və bu proses onların böhranlar, fəaliyyətin pozulması və fövqəladə hallar baş verdikdə riayət etməli olduqları siyasət və prosedurlardan və atmalı olduqları addımlardan xəbərdar olmalarını təmin etməlidir. Proses pozucu ssenarilərin simulyasiya olunduğu təlim məşqlərini əhatə edir.

I. Zəruri əməliyyat, insan, texnologiya və maliyyə resurslarının böhranlar, fəaliyyətin pozulması və fövqəladə hallar zamanı büdcələndirilməsini və əlçatan olmasını təmin etmək üçün proses müəyyən edilməlidir. Təşkilati dayanıqlılığı dəstəkləmək üçün zəruri maliyyə resursları mütəmadi olaraq təhlil edilməli və direktorlar şurasına çatdırılmalıdır.

J. Hadisələr baş verdikdən sonra böhranları, fəaliyyətin pozulması və fövqəladə halları nəzərdən keçirmək və hadisədən sonrakı icmalları "öyrənilmiş dərslər" prosesi vasitəsilə təhlil etmək, o cümlədən bu dərsləri gələcək təşkilati dayanıqlılıq planlaşdırılmasına daxil etmək üçün proses müəyyən edilməlidir.

**Daxili Auditorlar İnstitutu haqqında**

Daxili Auditorlar İnstitutu ("IIA"), qeyri-kommersiya təşkilatı olaraq dünyanın müxtəlif ölkələrində 270,000-dən artıq üzvünə xidmət göstərən və 200,000 nəfərdən çox şəxsə "Sertifikatlaşdırılmış Daxili Auditor" (Certified Internal Auditor®) sertifikatı təqdim etmiş, daxili auditorların beynəlxalq peşəkar assosiasiyasıdır. Əsası 1941-ci ildə qoyulmuş Daxili Auditorlar İnstitutu ("IIA"), daxili audit sahəsində standartlaşdırma, sertifikatlaşdırma, təlimlərin keçirilməsi, tədqiqatların aparılması və texniki təlimatların hazırlanması ilə bağlı fəaliyyət göstərən lider təşkilat kimi tanınır. Əlavə məlumat almaq üçün www.theiia.org internet səhifəsinə müraciət edə bilərsiniz.

**Müəllif hüquqları**

© 2026 Daxili Auditorlar İnstitutu ("IIA"). Bütün hüquqlar qorunur. Bu sənədi istənilən formada çoxaltmaq üçün icazənin əldə edilməsi ilə bağlı copyright@theiia.org elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamanız xahiş olunur.

Aprel 2026-cı il

The Institute of Internal Auditors

Global Headquarters
1035 Greenwood Blvd., Suite 401
Lake Mary, FL 32746, USA
Phone: +1-407-937-1111
Fax: +1-407-1101